# Azaflı mükafatının Türkiyə əks-sədası

**Ərzurumda nəşr edilən “Pusula” qəzeti Türkiyənin məşhur nəşrlərindəndir. Əsasən, Ərzurum, Qars, İqdır, Van bölgələrində yayılır. Gündəlik nəşr edilən qəzetin son sayında dərc edilən xəbər Azərbaycan Aşıqlar Birliyində keçirilən mərasim haqqındadır. Məqalədə deyilir:**

Ərzincan Binəli Yıldırım Universitetinin türk dili və ədəbiyyatı kafedrasının müdiri professor Ali Kafkasyalıya Azərbaycan Aşıqlar Birliyinin “Mikayıl Azaflı 100” medalı təqdim edilib.

Ali Kafkasyalı XX əsrin ustad sənətkarı təkcə Azərbaycanda deyil, Türkiyə və İranda da yaxşı tanınan və sevilən el sənətkarlarından olan Mikayıl Azaflının həyat və yaradıcılığına həsr olunmuş doktorluq işinin və Türkiyədə nəşr edilmiş “Mikayıl Azaflı: həyatı, sənəti, əsərləri” və “Qoca qartal Azaflı” kitablarının müəllifidir.

Azərbaycan Aşıqlar Birliyinin sədri professor Məhərrəm Qasımlı təqdimat mərasimindəki çıxışında dedi: Aşıqlar Birliyində Mikayıl Azaflının 100 illiyi münasibətilə "Mikayıl Azaflı 100" medalı hazırlanıb. Bu medal aşıq sənətinin inkişafında və təbliğində xidmətləri olan aşıqlara və alimlərə veriləcək. İlk olaraq medalı professor Ali Kafkasyalıya təqdim edirik. Ali Kafkasyalı bu medalı almağa halal haqqı olanlardandır. O, Azaflının əsərlərini doktorluq səviyyəsində tədqiq etməklə, Türk Dünyası aşıqlıq ənənəsinə böyük xidmətlər göstərmişdir.

Medalın təqdimetmə mərasimində rofessor Qazanfər Paşayev, Qazax İcra hakimiyyəti başçısının müavini Gülayə Həsənova, Ərzincan Universiteti Sosial Elmlər İnstitunun müdiri professor Necdət Tozlu, BDU-nun kafedra müdiri professor Məhərrəm Məmmədli, dosent Məti Osmanoğlu, AMEA-nın əməkdaşları İsmayıl Umudlu, İlhamə Gəsabova, əməkdar jurnalist Namiq Əhmədov, şair Rəfail İncəyurt, yazarlar Rəfael Tağızadə, Vaqif Osmanlı, aşıqlar Altay Məmmədli, Ədalət Dəlidağlı, Mikayıl Azaflının qızı aşıq Gülarə Azaflı və nəvəsi aşıq Roman Azaflı, iş adamları İsaxan və Azatxan Abdulla iştirak etdilər.




Proqramın sonunda Azərbaycan Aşıqlar Birliyinin sədri Məhərrəm Qasımlı Ali Kafkasyalıya medalın pasportunu, təltif sertifikatını və Ozan-aşıq Ensiklopediyasını təqdim etdi.

***XQ***

Xalq qəzeti .- 2024.- 22 dekabr (№ 283).- S.10.